**22.12.2023: xəbər**

## Student Assembly Elections Conducted at Khazar University

On December 18, 2023, Khazar University hosted elections for the positions of president, vice-president, and senate membership of the Student Assembly (SA) in the Marble Hall. In addition to students, the university's rector, faculty deans and deputies, the director and employees of the Quality Assurance Center, and the director of public relations and media participated in the election process.

Candidates for the president and vice-president positions, comprising 12 individuals from both local and foreign students across various faculties, participated in the elections. Each faculty nominated these candidates through separate conferences.

Fakhranda Efendiyeva, the dean of the School of Science and Engineering, addressed the participants, providing information about the election process and highlighting the past activities of the Student Assembly.

A counting commission, composed of five members, including one from the outgoing Student Assembly and the rest from the deans' offices, was formed to oversee the election process. Platform presentations from the 12 candidates were followed by a secret voting process involving 54 students from different faculties. The counting commission tallied the votes, resulting in Huseyn Musayev, a second-year Mechanical Engineering student, securing 12 votes and becoming the President of the Student Assembly. Abdulla Nuriyev, a second-year Economics major, received 11 votes and was elected vice-president. Additionally, 11 students were elected as members of the Senate.

Following the elections, the university's rector, Irada Khalilova, and the director of Public Relations and Media, Alovsat Amirbeyli, expressed their wishes for success to the newly elected members of the Student Assembly in their future endeavors.

## Tələbə Məclisinə seçkilər keçirilib

2023-cü il dekabrın 18-də Xəzər Universitetinin Mərmər salonunda Tələbə Məclisinə (TM) prezident, vitse-prezident və senat üzvlüyünə namizədlərin seçkisi keçirilib. Seçki prosesində tələbələrlə yanaşı, universitetin rektoru, fakültə

dekanları və müavinləri, Keyfiyyət təminatı mərkəzinin direktoru və əməkdaşları, İctimai əlaqələr və media üzrə direktor iştirak ediblər.

Tələbə Məclisinin prezidenti və vitse-prezidentliyinə seçki universitetin 5 fakültəsi üzrə müxtəlif ixtisaslarda təhsil alan əcnəbi və yerli tələbələrdən olan 12 namizəd arasında aparılıb. Qeyd edək ki, bütün fakültələr ayrı-ayrılıqda konfranslar keçirərək, bu tələbələrin namizədliyini irəli sürüb.

Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva çıxış edərək, seçki prosesi haqqında iştirakçıları məlumatlandırıb və Tələbə Məclisinin bu günə qədərki fəaliyyətindən danışıb.

Seçki prosesinin aparılması üçün səlahiyyəti başa çatmaqda olan TM-nin bir və fakültə dekanlıqlarından nümayəndələr olmaqla ümumilikdə beş nəfərdən ibarət hesablama komitəsi yaradılıb. Bundan sonra prezidentliyə namizəd olan 12 tələbənin platforma təqdimatları dinlənilib, sonra isə fakültələrin müxtəlif ixtisaslarını təmsil edən 54 tələbənin gizli səsverməsi əsasında seçim prosesi təşkil olunub və Hesablama Komitəsi tərəfindən səslər hesablanaraq, qalib elan edilib. Nəticə etibarilə Təbiət elmləri və mühəndislik fakültəsinin Mexanika mühəndisliyi ixtisasının II kurs tələbəsi, Heydər Əliyev adına təqaüdçü Hüseyn Musayev 12 səs toplayaraq, Tələbə Məclisinin prezidenti, 11 səs toplayan İqtisadiyyat və menecment fakültəsinin İqtisadiyyat ixtisasının II kurs tələbəsi Abdulla Nuriyev vitse-prezident, tələbələr arasında Senata seçim prosesində isə 11 nəfər Senata üzv seçilib.

Seçki prosesi başa çatandan sonra universitetin rektoru İradə Xəlilova, eləcə də İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli çıxış edərək, Tələbə Məclsinin üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.


Xəzər
Universiteti




Khazar
University







